# Azərbaycanın hərtərəfli inkişaf yoluna qədəm qoyduğu gün

## 14 iyul 1969-cu il

O gündən başlayaraq öz xalqının köklü maraqlarının gerçəkləşdirilməsi məramı ilə məqsədyönlü və genişmiqyaslı fəaliyyətə başlayan müdrik lider olan Heydər Əliyevin uzaqgörənliyi sayəsində Azərbaycanın milli-mənəvi irsinin qorunması da, respublika iqtisadiyyatının yeni tələblərə uyğun qurulması da, xalqın rifahının yüksəldilməsi də, yüksək bilik-bacarıqlı milli kadrlar yetişdirilməsi, o cümlədən, yeni nəsli hərbi sahəyə istiqamətləndirən liseyin yaradılması da məhz Azərbaycanın gələcək müstəqilliyi, bugünkü tərəqqi yoluna çıxa bilməsi üçün nəzərdə tutulmuş addımlar idi. 52 illik bir epoxanın bugünkü zirvəsindən aydın görünən həqiqət belədir: Ümummilli lider Heydər Əliyev respublika rəhbərliyinə gələndən sonra həyata keçirdiyi milli siyasət nəticəsində Azərbaycan bütün sahələr üzrə inkişafının yeni mərhələsinə qədəm qoyub, sözün əsl mənasında, öz intibah dövrünü yaşayıb.

Çağdaş dünyada beynəlxalq səviyyəli siyasət və dövlət xadimi kimi tanınan və təqdir edilən Azərbaycan lideri Heydər Əliyevin istər sovet dönəmində, istərsə də müstəqillik dövründə respublikamıza rəhbərlik etdiyi illərdə davamlı olaraq həyata keçirilən və cəmiyyət həyatının ən müxtəlif sahələrini əhatə edən genişmiqyaslı islahatlar ölkəmizin potensial imkanlarını dəfələrlə artırıb. Son 18 ildə Azərbaycan Prezidenti İlham Əliyev tərəfindən həyata keçirilən və möhtəşəm nailiyyətlərin qazanılmasına səbəb olmuş uğurlu daxili və xarici siyasət, məhz Heydər Əliyev dühasının formalaşdırdığı azərbaycançılıq konsepsiyasının tərkib hissəsidir.

Milli tariximizin ən böyük azərbaycanlısı olan Heydər Əliyev Azərbaycan xalqının oğlu olması ilə həmişə iftixar edib və bu şərəfli mənsubluğu xalqına təmənnasız xidmət örnəyinə çevirib: "Hər bir kəsin milli mənsubiyyəti onun üçün qürur mənbəyidir. Mən həmişə fəxr etmişəm və bu gün də fəxr edirəm ki, mən azərbaycanlıyam". Ulu öndərin bu müqəddəs duyğu-düşüncəsi Azərbaycan vətənpərvərliyinin ali zirvəsidir. Bu möhtəşəm vətənpərvərlik hissinin qaynaqlandığı azərbaycançılıq dünyagörüşü ulu öndərin siyasi fəaliyyətinin bütün sahələrində geniş məfkurəvi platforma olub.

1969–1982-ci illərdə Azərbaycana birinci dəfə rəhbərlik etdiyi dövrdə Heydər Əliyevin siyasi-ideoloji müstəvidə gördüyü əsaslı işlər sivil inkişafa və milli həmrəyliyin formalaşmasına geniş meydan açıb və prosesə güclü təkan verib. Milli-ideoloji siyasətin tərkib hissəsi olaraq 1978-ci ildə ulu öndərin təşəbbüsü və gərgin səyləri ilə Azərbaycan SSR-in Konstitusiyasına "Azərbaycan dili Azərbaycan SSR-in rəsmi dövlət dilidir" maddəsi daxil edilməsi milli ideologiyamızın funksional vahidi olan ana dilimizin mühafizəsi və təbliği baxımından mühüm tarixi əhəmiyyətə malik addım oldu.



***Ötən əsrin 70-ci illərindən başlayaraq, Azərbaycanın müasir tarixinin bütün mərhələləri məhz Heydər Əliyevin adı ilə bağlıdır. Ulu öndərin respublikanın rəhbəri vəzifəsinə gəldiyi 14 iyul 1969-cu il isə milli tariximizə 52 il əvvəl Azərbaycanın hərtərəfli inkişaf yoluna qədəm qoyduğu gün kimi daxil olub.***

O illərdə milli-mənəvi dəyərlərin qorunması istiqamətində həyata keçirilən əhəmiyyətli tədbirlər ədəbiyyat, musiqi, teatr, kino, rəssamlıq və digər sahələrdə təkamül meyillərini gücləndirib yeni milli intibaha çevirdi. Bütün ölkə üzrə müasir məktəblər, mədəniyyət evləri inşa edildi, görkəmli soydaşlarımızın abidələri ucaldıldı, ədəbiyyat və incəsənət xadimlərinə yüksək fəxri adlar, ali mükafatlar verildi.

Bütün bunlar isə cəmiyyətin intellektual təbəqəsinin fəaliyyətinin səmərəlilik səviyyəsini daha da artırdı, milli elitanın yüksəlişini stimullaşdırdı. Bütövlükdə, 1969-cu ildən başlayan böyük inkişaf və rifah yolu Azərbaycanın gələcək tərəqqisinin əsası oldu.

Ulu öndərin adı ilə bağlı 1969–1982-ci illər müstəqil dövlətçiliyimiz üçün zəruri şərtlərdən biri olan milli kadr hazırlığının əsaslı şəkildə təmin edilməsi baxımından da müstəsna əhəmiyyət kəsb edib. Heydər Əliyevin SSRİ tərkibində olan Azərbaycanda hakimiyyətə gəlişi ilə respublikamızda iqtisadi inkişafa doğru ciddi dönüş əldə edildi. Məhz həmin dövrdən başlayaraq, ulu öndər Heydər Əliyevin rəhbərliyi ilə respublikada həyata keçirilən genişmiqyaslı islahatlar iqtisadi potensialın formalaşdırılmasına, sosial-mədəni həyatın canlandırılmasına yönəldilərək gələcək müstəqilliyin təmin olunması üçün əsaslı zəmin hazırladı.

Beləliklə, hələ sovet dönəmində Azərbaycanda milli müstəqilliyə etibarlı zəmin formalaşdıran ulu öndər öz ölkəsində əlverişli sosial-iqtisadi, hüquqi və mənəvi-intellektual mühit yaradaraq, bu möhkəm bünövrə üzərində xalqın yaxın gələcəkdə azadlıq, istiqlaliyyət və müstəqillik ideallarına qovuşmasını təmin etdi. 1969–1982-ci illərdə respublikada ictimai-siyasi həyatın bütün sahələrində baş vermiş köklü dəyişikliklər öz miqyası və çəkisi ilə Azərbaycanın XX əsr inkişaf və quruculuq salnaməsinin ən dolğun, şərəfli səhifələrini təşkil edir.

Xüsusilə qeyd olunmalıdır ki, ulu öndər Azərbaycana rəhbərliyinin birinci 14 ilində müstəqil dövlətçiliyimiz üçün həyati əhəmiyyət kəsb edən milli kadrların hazırlanması istiqamətində mühüm baza rolunu oynayan elmin, təhsilin inkişafına xüsusi diqqət yetirib. Təsadüfi deyil ki, həmin illər həm də Azərbaycanda elm və təhsilin sürətli inkişaf dövrü kimi xatırlanır. Əgər 1969-cu ildə Azərbaycanda 765 orta məktəbdə ildə 73 min şagird təhsil alırdısa, 1981-ci ildə 335 min şagirdi əhatə edən 2 min 625 məktəb və günüuzadılmış qrup fəaliyyət göstərirdi. Həmin dövrdə ali məktəblərdə 100-dən artıq ixtisas açılıb, 6 yeni ali məktəb, 12 orta ixtisas məktəbi yaradılıb.

Keçmiş SSRİ-nin 50-dən artıq böyük şəhərinin 170-dən çox ən nüfuzlu ali məktəbində respublikamızın iqtisadi-təsərrüfat, elm, təhsil və mədəniyyətinin 80-dən artıq sahəsini əhatə edən və ən zəruri ehtiyac duyulan 250 ixtisas üzrə 15 mindən çox azərbaycanlı gənc ali təhsil alıb. Onların əksəriyyəti artıq 30 ildir ki, müstəqil Azərbaycanın sosial-iqtisadi inkişafında, dövlətçiliyinin möhkəmləndirilməsində fəal iştirak edir.

Bütün bunlardan göründüyü kimi, XX əsrin 70–80-ci illərində ulu öndər Heydər Əliyevin rəhbərliyi altında təhsil müəssisələrinin zəngin şəbəkəsinin yaradılması və onların maddi-texniki bazasının formalaşdırılması, respublika hüdudlarından kənarda yüksək ixtisaslı mütəxəssislərin, o cümlədən, hərbi kadrların yetişdirilməsi gələcək dövlət müstəqilliyimiz üçün zəruri intellektual potensial yaradıb.

1969-cu ilin 14 iyulunu siyasi tarixçilər, mütəxəssislər, haqlı olaraq, Azərbaycanın özünəqayıdışının, dirçəliş və inkişaf yolunun başlanğıcı kimi tədqiq edib öyrənirlər. Həmin tarixdən Azərbaycana rəhbərlik etmiş ulu öndər Heydər Əliyev qüdrətli dövlət xadimi, mahir siyasətçi olaraq Azərbaycanı təkcə keçmiş SSRİ-də deyil, yaxın və uzaq xaricdə də layiqincə tanıdıb, milli varlığımızı və müstəqil yaşamağa qadir olduğumuzu dünyaya nümayiş etdirib.

Ümummilli liderin müstəqillik illərində ikinci mərhələsi də əlavə olunmaqla bir qərinəlik dövrü əhatə edən nadir liderlik fəaliyyəti Azərbaycan dövlətinin tarixində müstəsna yer tutur. Xalqımız ulu öndərin adını ən yeni tariximizə müstəqil dövlətimizin əsaslarını yaradan, onu məhv olmaqdan xilas edən lider, yeni Azərbaycanın memarı və qurucusu kimi həkk edib.

Azərbaycanda dövlətçilik ənənələrinin ötən əsrin sonlarında bərpa edilib zənginləşdirilməsi, müstəqilliyin möhkəmləndirilməsi, onun əbədi, dönməz xarakter alması, ölkəmizin dinamik iqtisadi inkişaf yolu ilə inamla irəliləməsi, beynəlxalq nüfuzunun durmadan artması ideya və əməlləri ilə əbədiyaşarlıq qazanmış rəhbərimiz Heydər Əliyevin uzaqgörən və zəngin siyasi fəaliyyəti ilə mümkün olub.

***Səttar MÖHBALIYEV,***
***Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının sədri,***
***Milli Məclisin deputatı***